**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 104

**Bakı şəhəri** «14» oktyabr 2014-cü il

**"Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatının aparılması barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.4-cü bəndinə və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 13 oktyabr 2014-cü il tarixli 39 nömrəli Qərarına əsasən rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatının aparılması və iş yerlərinə göndərilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. "Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı üzrə Komissiya" yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).
2. "Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı üzrə Komissiya haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K. Mehdiyevaya tapşırılsın ki, bu əmrdən irəli gələn məsələlər həll edilsin.
4. Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın:

4.1. təyinat üzrə iş yerlərinə göndərilmiş həkim-mütəxəssislərin işə qəbulu təmin edilsin və bu barədə 1 iş günü müddətində Kadrlar, elm və təhsil şöbəsinə məlumat verilsin;

4.2. təyinat üzrə iş yerlərinə göndərilmiş həkim-mütəxəssislər üçün zəruri əmək şəraiti təmin edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

*Azərbaycan Respublikası*
*Səhiyyə Nazirliyinin*
*14.10.2014 il tarixli*
*104 nömrəli əmri ilə təsdiq*
*edilmişdir*

**"Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı üzrə Komissiya"nın**
**TƏRKİBİ**

| | |
|---|---|
| Zəkiyyə Mustafayeva | Aparatın rəhbəri (sədr) |
| Şəbruz Novruzova | Kadrlar, elm və təhsil şöbəsinin müdir müavini |
| Elxan Əzizov | Hüquq və daxili nəzarət sektorunun müdir vəzifəsini icra edən |
| Telman İbadov | Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi |
| Sabir Əliyev | Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru |
| Şahin Əliyev | Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun prorektoru |
| Nərgiz Qasımova | Respublika Uşaq Klinik Xəstəxanasının baş həkimi |

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 14. 10. 2014-cü il tarixli 104 nömrəli əmri ilə təsdiq edilmişdir*

**"Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı üzrə Komissiya haqqında"**

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.4-cü bəndinə və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 13 oktyabr 2014-cü il tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturanı bitirən həkim-mütəxəssislərin iş yerlərinə göndərilməsi Qaydaları"na əsasən hazırlanmışdır.

1.2. Bu Əsasnamə "Rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı üzrə Komissiya"nın (bundan sonra – Komissiya) fəaliyyətini müəyyən edir.

1.3. Komissiyanın əsas məqsədi dövlət sifarişi əsasında rezidenturanı bitirən həkim-mütəxəssislərin təyinatı və iş yerinə göndərilməsi (bundan sonra – təyinat) məsələlərinin tənzimlənməsi və həyata keçirilməsindən ibarətdir.

1.4. Komissiya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – Nazirlik) nəzdində fəaliyyət göstərir.

1.5. Komissiya öz fəaliyyətində mövcud olan qanunvericilik aktlarını, Nazirliyin qərar, əmr və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

## 2. Komissiyanın əsas vəzifələri

2.1. Komissiyanın əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.1.1. təyinatı həyata keçirir;

2.1.2. təyinatın nəticələrini təhlil edir və bununla bağlı Nazirliyə təkliflər verir;

2.1.3. təyinat ilə bağlı normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak edir;

2.1.4. Nazirliyin həkim-mütəxəssislərə daha böyük ehtiyacı olan tibb müəssisələrini və həmin müəssisələrin təyinat üçün vakansiyalarını müəyyən edir;

2.1.5. təyinat ilə bağlı ərizə və təkliflərə baxır.

## 3. Komissiyanın fəaliyyətinin təşkili

3.1. Komissiya Nazirlik tərəfindən 7 nəfərdən ibarət tərkibdə formalaşdırılır və təsdiq edilir.

3.2. Komissiyanın fəaliyyətinə rəhbərlik və işinin təşkilini Komissiyanın sədri həyata keçirir.

3.3. Komissiya tərkibi təsdiq olunduğu gündən öz işinə başlayır və komissiyanın yeni tərkibi təsdiq olunana qədər öz səlahiyyətlərini yerinə yetirir.

3.4 Nazirliyin tabeliyində olan tibb müəssisələrindəki vakansiyalar həkim-mütəxəssislərin ixtisaslarına uyğun olaraq Komissiya tərəfindən nazirliyin rəsmi internet saytının (www.health.gov.az) "Həkimlərin mərkəzləşdirilmiş işə qəbulu" bölümündə verilən həkim vəzifələri üzrə mövcud vakansiyalardan seçilir.

3.5. Vakansiyaların seçimi zamanı həkim-mütəxəssisə daha çox tələbatın olduğu bölgələrə Komissiya tərəfindən üstünlük verilir.

3.6. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə onun iclaslarında baxılır.

3.7. Təyinat Yekun Attestasiyadan sonra 1 aydan gec olmayaraq həyata keçirilir.

3.8. Komissiyanın iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.

3.9. Təyinatı aparılan şəxslər Komissiyanın iclası barədə iclasa 5 iş günü qalmış təhsil aldıqları kilinik baza vasitəsi ilə və Nazirliyin rəsmi internet saytında elan verilməklə məlumatlandırılırlar.Təyinat haqqında qərar həkim-mütəxəssisin iştirakı ilə qəbul edilir. Həkim-mütəxəssis komissiyaya gəlmədiyi təqdirdə təyinat haqqında qərar onun iştirakı olmadan qəbul edilir.

3.10. Komissiya həkim-mütəxəssislərin təyinatı haqqında qərarı onların ailə vəziyyəti, daimi yaşayış yeri və onların daha məqsədəuyğun istiqamətdə işə yönəldilməsi barədə klinik bazanın tövsiyələrini nəzərə almaqla qəbul edir. Eyni zamanda təyinat aparılarkən aşağıdakı hallar nəzərə alınır:

- müvəffəqiyyət göstəricilərinin (yekun attestasiyanın nəticələri yüksək olması);
- rezidenturada oxuyarkən şəxsin apardığı elmi-tədqiqat fəaliyyəti.

Həmçinin təyinat aparılarkən evli cütlüyün təyinat vaxtı eyni ərazi üzrə işləmək arzuları nəzərə alınır.

3.11. Özü və ya himayəsindəki ailə üzvü (valideyn, həyat yoldaşı) I və ya II qrup əlil, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan həkim-mütəxəssislərə istəkləri nəzərə alınmaqla təyinat və ya azad təyinat haqqında arayış (2 nömrəli əlavə) verilir. Əri (arvadı) hərbi qulluqçu (zabit, gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçu) olan həkim-mütəxəssislərə öz ərinin (arvadının) xidmət yeri nəzərə alınmaqla təyinat verilir, belə imkan olmadıqda isə (yaxud özləri istəsələr) onlara azad təyinat haqqında arayış verilir.

3.12. Komissiya açıq səsvermə yolu ilə sadə səs çoxluğuna əsasən təyinat barədə qərar qəbul edir. Səslər bərabər olduqda komissiya sədrinin səsi həlledici hesab olunur.

3.13. Nazirliyin tabeliyində olmayan tibb müəssisəsinə həkimlərin təyinatı tibb müəssisəsinin tabe olduğu qurumun nazirliyə göndərdiyi müraciətinə əsasən həyata keçirilir.

3.14. Komissiya iclasların protokollarını və təyinat cədvəlini tərtib edir.

3.15. Komissiya öz fəaliyyəti ilə bağlı məlumatları, iclaslarının protokollarından çıxarışları Nazirliyə təqdim edir.

## 4. Yekun müddəalar

Komissiyanın qəbul etdiyi qərarlardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.